"MƏN VƏ MƏNİM DÜNYAM"

DƏDƏ QORQUD BOYLARI

# Bəkil oğlu İmranın boyu



Layihənin məsləhətçisi: Xalq yazıçısı ELÇİN



*«Beşik nəşriyyatı»nın nağıllar dünyasına xoş gəlmisən, balaca! Bu dəfə sənə «Bəkil oğlu İmranın boyu»nu təqdim edirik! Bütün türk xalqlarının qürur mənbəyi olan «Kitabi-Dədə Qorqud» dastanını oxuyasan deyə, onun boylarını sənin üçün sadələşdirdik. Oxu və ulu babalarının qəhrəmanlığından, tarixi keçmişindən xəbər tut!*



Oğuz elinə bahar gəlmişdi. Hər il olduğu kimi, Bayandur xan baharı salamlamaq üçün qonaqlıq təşkil etmiş, bütün Oğuz bəylərini dəvət etmişdi.

Gürcüstan elinin elçiləri hər dəfə Bayandur xana qızıl, gümüş hədiyyə gətirsələr də, bu dəfə at, qılınc və çomaq gətirmişdilər. Bu isə o demək idi ki, biz səndən qorxmuruq. Onların hərəkəti Bayandur xana xoş gəlmədi. O, dərin fikrə getdi. Dədə Qorqud bunu görüb dedi:



— Xanım, nə üçün qanın qaradır? Belə xoş gündə heç vaxt bikef olmazdın.

— Dədə, bu hədiyyələrin mənası məni heç açmadı.

— Qanını qaraltma, oğul. Onları elin bir igidinə ver, qoy, gedib Oğuz elinin sərhədlərini qorusun.



Bayandur xan sağına baxdı, soluna baxdı. Birdən gözü məclisin lap aşağısında oturmuş pəhləvan cüssəli Bəkilə sataşdı. İşarə ilə onu yanına çağırdı. Bəkil Bayandur xana yaxınlaşıb baş əydi:

— Buyur, xanım.



— Bəkil, sənin necə qoçaq, necə igid olduğunu bilirəm. Ona görə də Oğuzun sərhədlərini sənə tapşırıram. Bu gündən görən gözümüz, eşidən qulağımız olacaqsan. Ana-atalarımızın, qız-gəlinlərimizin əmin-amanlığı sənin əlindədir.



Bəkilin qürurundan ürəyi köksünə sığmırdı, axı Oğuzun namusunu qorumaq ona tapşırılmışdı.

Bəkil qohum-əqrabasını, həyat yoldaşını, oğlunu başına yığıb hər şeyi onlara danışdı. Hamısını yığıb Oğuz elinin sərhəddinə yollandı. Ailəsini Gəncədə qoyub, Gürcüstan sərhəddində özünə çadır qurdu. Canla-başla Vətəni kafirlərdən qorumağa başladı. Bəkilin igidliyini bəyənən Bayandur xan bir gün onun şərəfinə böyük məclis təşkil etmişdi. 3 gün, 3 gecə qonaqlıq verdikdən sonra bəylər ova çıxmışdılar.

Yolda söhbət edə-edə Bəkili tərifləyir, onun ovçuluq məharətindən danışırdılar.

Sözarası Qazan xan bütün hünərin Bəkilin atında olduğunu söylədi. Bəkil çox tutuldu. Ova getməyib onlardan ayrıldı və 40 igidlə birgə geriyə – ailəsinin yanına qayıtdı.



Bəkilin kədərli olduğunu görən arvadı soruşdu:

— İgid bəyim, nə üçün qanın qaralıb? Xan məclisində xətrinə dəyiblər?

— Gözəlim, mən orada özümə qarşı soyuqluq gördüm. Bir də ora ayaq basmayacam. Sizi də götürüb Gürcüstan elinə gedəcəm.



Xanımı dedi:

— Hirsli başda ağıl olmaz, belə tez qərar vermə. İgid öz padşahının üzünə ağ olmaz. İgidlərlə ova çıx, bir az fikrin dağılsın, hirsin soyusun.

Bəkil arvadının sözləri ilə razılaşdı, igidlərlə birgə ova yollandı.



Bir xeyli ov etdikdən sonra bir maral gördü. Dostlarından ayrılıb onun arxasınca getdi. Kəməndini atıb tutmaq istədikdə elə bil ayağının altından yer qaçdı. Sürüşüb təpədən yıxıldı.

Bu vəziyyətdə nə qədər yatdığını bilmirik. Huşu özünə gələndə gördü ki, hava artıq qaralıb. Ayağa qalxmağa çalışdı, ancaq baxdı ki, ayağı sınıb. Birtəhər atın belinə qalxdı. Özünü yəhərə sarıdı və ağrıdan huşunu itirdi. Vəfalı at onu darda qoymadı, evinə gətirdi.



Oğlu İmran alaçığın qabağında idi, uzaqdan gələn atı tanıdı. Cəld yüyürüb yüyəndən yapışdı. Atasını qucağına alıb, çadıra apardı. Tez dava-dərman etdilər. Elə bu vaxt Bəkillə ova gedənlər geri qayıtdılar. Gəlib onu yataqda görəndə elə bildilər ki, düşmənlərin hücumuna məruz qalıb. Ancaq Bəkil onlara ayağının sındığını dedi.





Pis xəbər tez yayılar, deyirlər. Bəkilin yorğan-döşəyə yıxılması xəbəri də gedib gürcülərə çatdı. Onlar qərara gəldilər ki,Oğuz elinə hücum etsinlər. Kafirlərin içərisində Bəkilin adamı var idi. O, tez Bəkilə xəbər göndərdi.

Bəkil oğlunu çağırdı:

— İmran, atı min Bayandur xanın divanına get.Qazan xanın əlindən öp, kömək istə.

Bu sözlər İmranın xətrinə dəydi:

— Ata, mən dura-dura niyə köməyə adam çağırırsan?! Atını, silahını mənə ver. 300 igidlə gedim düşmənlə vuruşum.

Bəkil bu sözləri eşidəndə gözləri yaşardı, öz cavanlığı yadına düşdü.

— Tez olun, geyimimi, atımı, silahımı gətirin, oğlum atlansın, döyüş meydanına getsin.



İmran geyinib-keçindi, atasının atına minib silahına qurşandı. 300 igidlə döyüşə yollandı.

Kafirlər uzaqdan Bəkilin atını görüb qorxuya düşdülər:

Bəkili tanıyanlardan biri dedi:

— At Bəkilindir, amma tərkindəki bığ yeri yeni tərləmiş cavan bir oğlandır.

Beləcə, onlar meydanda İmrana hədə-qorxu gəlməyə başladılar. Bunu başa düşən İmran üzünü Şöklü Məliyə tutub dedi:

— Ədə, kafir, nə boş-boş danışırsan?! Əgər qorxmursansa, gəl döyüşək.



Bu sözlər kafiri çaşdırdı:

— Oğlan, tərkində oturduğun at Bəkilindir, bəs sən kimsən?

— Bəkilin oğluyam. Bəsdir, sual verdin, ya gəl döyüşək, ya da dəstəvi götür, buralardan çıx get.



Kafir hirslənib atını irəli sürdü. Döyüş başladı. Düşmən 6 pərli gürzünü əlinə alıb İmranın üstünə hücum etdi. O, qalxanını qabağa verdi. Sonra qılınca əl atdılar, yenə də bir-birinə güc gələ bilmədilər. Bu dəfə də meydanda güləşməyə başladılar. Kafir az qala onu üstələyirdi. Bunu başa düşən İmran üzünü göylərə tutub Allaha yalvardı:

— Ey uca Tanrı, məni elimin-obamın, atamın-anamın yanında xar eləmə. Sən özün hər şeyə qadirsən. Qollarıma güc, dizimə taqət ver ki, Oğuz elini bu kafirlərdən xilas edim.

Bu sözləri eşidən kafir qəhqəhə çəkib güldü:

— Oğlan, sənin bir Allahın mənim 72 bütümün qabağında nə edə bilər?



— Sən bütə yalvar, mən Tanrıya, görək nə olur.

Allah öz bəndəsinin səsini eşitdi. Onun qollarına 40 igidin gücünü verdi. İmran kafiri başına alıb yerə çırpdı. Başını kəsmək istəyəndə düşmən ondan aman istədi:

— Öldürmə məni, sənin bir Allahın mənim 72 bütümə qalib gəldi. Öldürmə!



Öz başçılarının döyüş meydanında məğlub olduğunu görən kafirlər qaçdılar. Bütün camaat igidləri böyük sevinclə qarşıladı. Bəkil oğlunu da götürüb Bayandur xanın yanına getdi. Bütün inciklikləri unudub xanın əlini öpdü. Xan onların şərəfinə qonaqlıq təşkil etdi. Oğuz elinin ağsaqqalı Dədə Qorqud da məclisə gəlib qopuz çaldı. İgidlərə xeyir-dua verdi.





*Ümid edirik ki, bu seriyadan olan nağıllarımızı oxuduqdan sonra tarixi keçmişimiz, qəhrəmanlıq dastanlarımız haqqında daha ətraflı məlumat əldə etmək istəyəcəksən.*

*Bu yolda «Beşik nəşriyyatı» balalarımıza və valideynlərə yardımçı olmağa çalışacaq.*



**İdeya müəllifi:** Qoşqar Qarayev
**Layihənin rəhbəri:** Qaraqoyunlu

**Nəşriyyat direktoru:** Nərgiz Cabbarlı
**Nəşriyyat redaktoru:** İlyas Tapdıq
**İşlədi:** Yeganə Mehdiyeva
**Texniki qrupun rəhbəri:** Denis İzuf
**Rəssamlar:** Əjdər Qafarov
Nərmina Qasımova
**Dizayner:** Rumil Hüseynov
**Operator:** Rəna Əzizova

**Çapa imzalanmış: 20.02.2009,**
**formatı 60x90/8, fiziki ç.v. 4,25,təbaşirli kağız №1,**
**arial qarnituru, sifariş DQ.№3, sayı 500**

**Kitab** *«Beşik nəşriyyatı»***nda nəşrə hazırlanmış**
**(Tel.: (+99440)2181787, (+99450)4989555**
**E-mail: beshik@beshik.az; www.beshik.az)**
**və**
**"İDEAL-PRİNT" mətbəəsində ofset üsulu ilə çap olunmuşdur**
**Tel.: (+99412)3426767**
**idealprintx@mail.ru**

**STANDARTLAŞDIRMA, METROLOGİYA**
**VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ**
**şəhadətnamə № 2005 0563**
**iddia sənədi № 2005 0841,**
**ilkinlik tarixi: 15.07.2005.**
**Bütün müstəsna hüquqlar**
*«Beşik nəşriyyatı»na*
**məxsusdur.**
© *«Beşik nəşriyyatı»*

**Əmtəə nişanı: "MƏN VƏ MƏNİM DÜNYAM"**

**ISBN 978-9952-446-71-5**

"BEŞİK NƏŞRİYYATI" BAKI

ISBN 978-9952-446-71-5
9 789952 446715